# "Müharibəyə yox, sanki toya gedirdi"- şəhid Hümbət Yaqubovun atası...

**Məhəmət Yaqubov:** *"Dedi ki, ata, mən heç nədən qorxmuram, Allah qoysa, qayıdacam, yaxşı olacaq hər şey"*

**Neçə-neçə igidimiz Vətən müharibəsinə könüllü getdi, son damla qanlarına kimi düşmənə qarşı döyüşdülər, şəhidlik şərbəti içdilər. O oğullar özlərindən sonra elə bir iz qoyub getdilər ki, əsrlər keçsə də o izlər silinməyəcək. Çünki o izlər tariximizə və qan yaddaşımıza həkk olunub. Belə cəsur oğullarımızdan biri də 1998-ci il sentyabrın 4-də Hacıqabul rayonu Meyniman kəndində dünyaya göz açan Yaqubov Hümbət Mərhəmət oğludur.**



*"Döyüş yoldaşları ilə birgə Qırmızı Bazar kəndi ətrafında mühasirəyə düşüb və qızğın döyüşlərdə son damla qanına kimi vuruşub"*

Hümbət həyatdan nakam köçsə də, canı qədər sevdiyi, canını, qanını əsirgəmədiyi Vətən torpaqlarının düşmən işğalından azad edilməsi yolunda şəhid olub.

Hümbətin atası Mərhəmət Yaqubovla Biləsuvar rayonunda yaradıcılıq ezamiyyətində olarkən tanış olduq, danışdıq, dərdləşdik.

Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 gün-Tarixi zəfər" IV cildliyinin III və IV cildlərinin təqdimat mərasiminə Mərhəmət Yaqubov da gəlmişdi.

Mərhəmət ata da başqa şəhid atalarına bənzəyir, sakit, susqun...Danışmağa, bölüşməyə elə də maraq göstərmir. Sanki hər şeydən küsüb və özünə sığınıb.

"Hümbətdən nə danışım, qızım, o da başqa oğullarımız kimi öz arzusuna çatdı"- deyir ata. M.Yaqubov deyir ki, Hümbət 2005-ci ildə Meyniman kənd tam orta məktəbin birinci sinifə daxil olub, 2016-cı ildə həmin məktəbi bitirib və 2017-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Həqiqi hərbi xidmətini Mingəçevir şəhərində N saylı hərbi hissədə başa vurub.

"Minlərlə igid oğullarımız kimi Hümbət də müharibəyə getdi. Sanki müharibəyə yox, toya gedirdi, yəni cəbhəyə getməyə o qədər can atırdı. Hümbət 2020-ci ilin oktyabrın 9-da Vətən müharibəsinə qatılıb. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində döyüşlərdə pulemyotçu kimi iştirak edib. Döyüş yoldaşları ilə birgə Qırmızı Bazar kəndi ətrafında mühasirəyə düşüb və qızğın döyüşlərdə son damla qanına kimi vuruşub". 22 yaşlı Hümbət qanlı döyüşlər zamanı - oktyabrın 27-də şəhid olub və noyabrın 30-da Hacıqabul qəbiristanlığında dəfn olunub.

"Çox vətənpərvər və heç nədən qorxmayan oğul idi. Döyüşə oktyabrın 9-da Səfərbərlik tərəfindən çağırıldı. Demək istəyirəm ki, onu yola salanda üzündə kədər, soyuqluq yox idi. Bütün igidlərimiz kimi oğlumun da üzündə təbəssüm var idi. Yenə də deyirəm, elə bil müharibəyə yox, toya gedirdilər. Uşaqlarda elə yüksək əhval-ruhiyyə var idi ki... Onları vətənpərvərlik hissi aparırdı. Burdan onlar getdilər Ağcabədiyə. Oradan da oktyabrın 15-də Füzuliyə gediblər. Füzulidə olanda telefonla danışdıq. Çox şeyləri mən soruşmurdum, o da elə şeylər də var idi ki, hərbi sirr olduğuna görə demirdi"- deyir ata.

Onu da bildirir ki, Hümbət uşaqlıqdan sözəbaxan, heç kimi incitməyən, zəhmətkeş, qorxmaz bir uşaq olub. "Əsgər yoldaşlarının dediyinə görə, bir dəfə güllə yağışı altında, qorxmadan gedib əsgər yoldaşlarına içmək üçün su gətirib. Mənim oğlum ana-ata qədri bilən, sakit, sözəbaxan uşaq olub. Əsgər getdi-gəldi, qismətində müharibəyə getmək də oldu. Axırıncı dəfə mənimlə danışdı. Dedi ki, ata, mən heç nədən qorxmuram, Allah qoysa, qayıdacam, yaxşı olacaq hər şey. Heç vaxt heç nədən qorxmayıb. Uşaqlıqdan hər bir əziyyəti də görüb, çətinliklə böyüyüb. İdmançı olub. İdmanla məşğul olardı, elə bil müharibəyə hazırlaşırdı. Qollarına güc yığırdı. Döyüşdə Zöhrab adlı dost, qardaş tapmışdı özünə. Döyüşdə su lazım olub, qorxmadan gedib gətiriblər. Bacısına deyib ki, atama de, qurbanlıq alsın. Sağ-salamat gəlim, öz adımdan, əsgərlər adından qurban kəsərik. O qurbanlığı aldım, amma mənim uşağıma qismət olmadı".

Hümbət oktyabrın 25-də ailəsi ilə sonuncu dəfə əlaqə saxlayıb və qələbə inamı hissi ilə atasından xahiş edib ki, qalib olduğumuzda qurban kəsin. "Noyabrın 10-u qələbə xəbəri gəlsə də, Hümbətdən xəbər gəlmədi. Sonra Hümbətin Qırmızı Bazar uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olduğunu öyrəndik. Oğlumun nəşinin kimliyi təsdiqləndikdən sonra bizə təhvil verildi. Meyniman kəndində torpağa tapşırdıq. Mən oğlumun vəsiyyətini yerinə yetirdim və qələbə qazandığımız üçün qurban kəsdim..."

Ata deyir ki, beş övlad böyüdüb, iki oğlan, üç qız. "Hər il bayram günlərində bacılarını təbrik edirdi, amma sonra... Balalarım bir-biri ilə çox mehriban idilər. Hümbətin xasiyyəti çox yaxşı idi. Təmiz ürəyi var idi. Orda olanda bacısına deyib ki, Əfsanə neynirsən? O da "nar yığıram sənin üçün"-deyib.

"Mənim üçün də saxlayın, hamısını yeməyin" deyərək bacısı ilə zarafat edib.

Hümbət əsgərlikdən qayıtdıqdan sonra ailəsinə hərbidə xidmətini davam etdirmək üçün sənəd verdiyini deyib. "Şəhid olandan sonra cüməsi idi. Cüməsində məktub gəlmişdi ki, hərbiyə qəbul olub. Qismət olmadı. Fəxr edirəm şəhid oğlumla".

Ata deyir oğlunun ən böyük arzusu hərbçi olmaq və vətənin keşiyində dayanmaq idi. "O bir əsgər kimi Vətənin müdafiəsinə getdi, hərbiçi ola bilməsə də, qəhrəmancasına döyüşərək şəhid oldu".

Hümbət Birinci Qarabağ müharibəsi iştirakçısı olan əmisi Sahibxan Hümbətova deyib ki, əmi, siz getdiniz döyüşdünüz, amma biz gedib həmin torpaqları düşmən tapdağından azad edəcəyik, öz torpaqlarımızı qaytaracağıq, sizin işinizi, çəkdiyiniz əməyi yerə vurmayacağıq, biz alacağıq torpaqları. "Nəyin bahasına olur-olsun, vuruşa-vuruşa torpaqları geri alacağıq"-deyib Hümbət.

Əsgər Hümmət Yaqubov ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hacıqabulun Meyniman kənd məzarlığında bir cəsur oğul uyuyur, canı qədər sevdiyi, qanı bahasına qoruduğu, özünü fəda etdiyi Vətən torpağını qucaqlayıb uyuyur. Əbədiyyət yolçusu-igid Hümbət, əbədi yuxun mübarək!

***İradə SARIYEVA***
**Biləsuvar-Bakı**